Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
“02” iyun 2017-ci il tarixli “130” nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

“TƏBLİĞAT-TƏŞVİQAT QRUPU”NUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ HAQQINDA METODİK TÖVSİYƏ

1. Ümumi müddəalar

1.1. Bu tövsiyə - rayonda ictimai-siyasi və sosial-iqtisadi sahədə təbliğat işlərini həyata keçirmək məqsədilə yaradılmış “Təbliğat-təşviqat Qrupu”nun fəaliyyətinin təşkilini tənzimləyir.
1.2. “Təbliğat-təşviqat Qrupu” - ictimaiyyətin daha aktiv üzvü olan, ictimai-siyasi və sosial-iqtisadi sahədə məlumat, maarifləndirmə və təbliğat işinə dəstək verən, bu tövsiyələrə uyğun seçilərək müəyyən edilən əlaqələndirici şuranın üzvlərindən, Təşviqat müvəkkillərindən və təşviqatçılardan ibarətdir .
1.3. “Təbliğat-təşviqat Qrupu”nun struktur tərkibi aşağıdakı kimidir:
1.3.1. **Əlaqələndirici şuranın üzvləri**- Rayon İcra Hakimiyyətinin Aparatının şöbə müdirləridir.
1.3.2. **Təşviqat müvəkkilləri**- rayonda fəaliyyət göstərən mülkiyyət və təşkilatı hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda ictimai-siyasi və humanitar məsələlər üzrə işlər həvalə edilmiş vəzifəli şəxslərdir (müavin, şöbə müdiri (rəisi), bölmə müdiri (rəisi)).
1.3.3. **Təşviqatçılar**- ictimaiyyət arasında yüksək nüfuza malik ağsaqqallar, ziyalılar, gənclər və qadınlardır.
2. “Təşviqatçılar” qəsəbə və mikrorayonlarda könüllülük prinsipi əsasında aşağıdakı meyarlar nəzərə alınmaqla seçilir:
- ali təhsilə malik olmaları;
- yaşı 25-dən az olmamalı;
- işlədiyi kollektivdə və yaşadığı ərazidə müsbət nüfuza malik olmalı;
- ictimai-siyasi və sosial-iqtisadi məsələlər barədə anlayışlara, biliklərə malik olmaları;
- dini radikal qruplara meylli olmamalı;

3. Təbliğat-təşviqat Qrupunun əlaqələndirici şurası tərəfindən vəzifə bölgüsü, iş planı və digər normativ sənədlər hazırlanır və seminar görüşlər vasitəsilə Təşviqat müvəkkillərinə, təşviqatçılara öyrədilir.

4. Seminarlarda təbliğat müvəkkillərinə və təşviqatçılara rayonda ictimai-siyasi və sosial- iqtisadi sahədə təbliğat işlərinin həyata keçirməsi üçün öhdəlikləri barədə izahatlar verilir.
5. Təşviqat müvəkkilləri və təşviqatçılar bu tövsiyələrin 3-cü bəndində göstərilən öhdəlikləri yerinə yetirmədikdə, habelə Təbliğat-təşviqat Qrupunun adından sui-istifadə hallarına, öz nüfuzuna xələl gətirən əməllərə yol verdikdə Təbliğat-təşviqat Qrupunun tərkibindən çıxarılır, vəzifəli şəxslər barəsində intizam məsuliyyət tədbirləri və digər şəxslər haqqında isə ictimai qınağa cəlb olunması ücün tədbirlər görülür.
6. Təşviqat müvəkkilləri və təşviqatçılar tərəfindən bu tövsiyələrin 3-cü bəndində göstərilən öhdəliklərin yerinə yetirilməsi vəziyyəti Təbliğat qrupunun əlaqələndirici şurasının iclasında baxılır.

7. Təşviqat müvəkkillərinin və təşviqatçıların öhdəlikləri.

7.1. Təşviqat müvəkkillərinin və təşviqatçıların öhdəlikləri aşağıdakılardır:
7.1.1.İşlədiyi kollektivdə və yaşadığı ərazidə əhali arasında ölkənin sosial-iqtisadi sahəsində görülmüş işlərin uğurlu nəticələri, dünyada gedən proseslər və ölkənin ictimai-siyasi həyatında baş verən və təsir edə biləcək hadisələr haqqında və vətəndaş həmrəyliyinin formalaşmasına dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirmək;
7.1.2. Qrupun rəhbərliyi tərəfindən verilən təbliğat materiallarını öyrənilməsi və bu barədə məlumatlandırma işlərini təşkil etmək;
7.1.3. Gənclərə təbliğat-təşviqat anlayışlarını, dövlət üçün bunun əhəmiyyətini izah etmək, onlarda ictimai-siyasi və sosial-iqtisadi məsələlərə diqqətlə yanaşılması marağını yaratmaq;
7.1.4. Təbliğat-təşviqat işləri üçün nəzərdə tutulmuş təbliğat vəsaitlərini (buklet, qəzet, jurnal və s.) təbliğ etmək, öyrənilməsinə köməklik göstərmək;
7.1.5.ictimai tədbirlərdə dövlətçiliyi, vətənpərvərliyi, ölkədə həyata keçirilən islahatların uğurlu nəticələrini, ölkədə hökm sürən siyasi stabilliyi təbliğ edən çıxışlar etmək: sakinlərdə ictimai-siyasi mədəniyyəti formalaşdırmaq, ölkədə ictimai-siyasi vəziyyətə təsir edə biləcək mənfi tendesiyaların qarşısının alınmasının hər kəsin mənəvi borcu və bu gün ölkədə həyata keçirilən islahatların gələcəyə qoyulan sərmayə olduğunu ictimaiyyətin bütün təbəqələrinə aşılamaq;
7.1.6. rayon icra hakimiyyətinin internet saytı, sosial şəbəkələrdəki səhifələri “1646”- Sakinlərin Müraciət Xidməti, infoköşklər haqqında və onlardan istifadə barədə məlumatlar yaymaq;
7.1.7. təbliğat-təşviqatı aparılmalı məsələlərə dair buklet, broşur, yaddaş, təqvim və başqa maarifləndirmə və digər təbliğat vasitələri paylamaq;
7.1.8. Təbliğat-təşviqat Qrupunun əlaqələndirici şurası tərəfindən təbliğat-təşviqat işlərinə dair əhali və kollektivlər arasında təşkil olunan görüş və treninqlərində iştirak etmək;

7.1.9. gördüyü işlər barədə əlaqələndirici şuraya vaxtaşırı məlumat vermək, qrupun və ya öz nüfuzuna xələl gətirən əməllərə yol verməmək.
7.1.10. Təşviqat müvəkkillərinin və təşviqatçılarının öhdəliklərinin yerinə yetirilməsinə digər şəxslərə həvalə edilməsi və ya məcburi şəkildə cəlb edilməsi yolverilməzdir.

8. Təbliğat-təşviqat Qrupunun Əlaqələndirici şuranın öhdəlikləri

8.1. "Təbliğat-təşviqat Qrupu"nun fəaliyyəti üzrə əlaqələndirici şuranın aşağıdakı öhdəlikləri vardır:
8.1.2.bu tövsiyyələrdə göstərilən meyarlara əsasən Təşviqat müvəkkillərini və təşviqatçıları seçmək;
8.1.3.Təşviqat müvəkkillərinin və təşviqatçıların fəaliyyətini istiqamətləndirmək, bu məqsədlə onlarla vaxtaşırı görüşlər və seminar treninqlər keçirmək;
8.1.4.Təşviqat müvəkkillərini və təşviqatçıları lazımı sənədlər, metodiki vasitələr və digər zəruri avadanlıqlarla təmin etmək;
8.1.5.Təşviqat müvəkkillərini və təşviqatçıların fəaliyyəti üzrə rayonda mülkiyyət və təşkilatı hüquqi formasından asılı olmayaraq fəaliyyət göstərən idarə, müəssisə və təşkilatla və ictimaiyyətin digər aktiv nümayəndələri ilə əlaqəli iş qurmaq;
8.1.6.Təşviqat müvəkkillərini və təşviqatçıları onların fəaliyyətinin nəticələrinə görə stimullaşdırılması məqsədilə aidiyyəti üzrə təkliflər vermək;
8.1.7.Təşviqat müvəkkillərinin və təşviqatçıların və onların bu sahədəki fəaliyyətləri barədə məlumatları yığmaq, ümumiləşdirmək və saxlamaq;
8.1.8.Rayonda ictimai-siyasi vəziyyət barədə məlumatı toplamaq, təhlilini həyata keçirmək, mövcud tendensiyaları müəyyənləşdirərək təkliflərini rayon rəhbərliyinə təqdim etmək.

9. Yekun müddəalar

9.1. Azərbaycan Respublikası Prezidenti administrasiyasının, Rayon icra hakimiyyətinin tapşırıq və tövsiyələrinə əməl etmək.